# Samux rayonunda soyqırımı tədbiri



***Samux rayonunda qan yaddaşımızda dərin izlər buraxmış Azərbaycanlıların Soyqırımı ilə əlaqədar tədbir keçirilmişdir.***

YAP Samux Rayon təşkilatında rayon icra hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə icra hakimiyyətinin başçısı Alı Qocayev açaraq demişdir ki, tarix boyu xarici qüvvələrin havadarlığı ilə erməni qəsbkarları Vətənimizə və xalqımıza qarşı məkrli addımlar atmış, qırğın və soyqırımları törətmişlər. Belə qanlı olaylardan birinin də 1918-ci ildə erməni daşnak-bolşevik birlikləri tərəfindən törədilən 31 Mart soyqırımı olduğunu bildirən Alı Qocayev bu qətliam zamanı azərbaycanlılara məhz milli mənsubiyyətinə görə divan tutulduğunu xüsusi vurğulamışdır. Natiq 31 Mart soyqırımına ulu öndər Heydər Əliyev tərəfindən gerçək hüquqi-siyasi qiymət verildiyini qeyd edərək bu hadisənin bir soyqırımı aktı olduğunu demişdir.

Rayonun Sərkar kənd orta məktəbinin müəllimi Günel Əhmədova, şəhər 1 saylı tam orta məktəbin müəllimi Raminə Həsənova və İnstitut qəsəbə orta məktəbinin müəllimi Dilarə Əsgərova çıxış edərək xarici havadarlarının dəstəyi ilə əzəli Azərbaycan torpaqlarında məskunlaşdırıldıqdan sonra ermənilərin daim soydaşlarımıza qarşı məkrli və təcavüzkar planlar həyata keçirdiklərindən danışmışlar.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

Xalq qəzeti.- 2022.- 1 aprel.- S.7.